***EKOLOJİ TƏHSİL VƏ TƏRBİYƏ***
***ECOLOGICAL EDUCATION AND UPBRINGING***
***ЭКОЛОГИЧЕСКОЕ ОБРАЗОВАНИЕ И ВОСПИТАНИЕ***

*UOT 37.01*

***Könül Faiq qızı Mahmudova***
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Biologiya və onun tədrisi texnologiyası kafedrasının dosenti*
*https://orcid.org 0000-0001-7042-9257*
*E-mail: konul-mahmudova@mail.ru*
*https://doi.org/10.69682/arti.2025.92(6).117-121*

# EKOLOJİ TƏHSİL, EKOLOJİ TƏRBİYƏ MƏSƏLƏLƏRİ

***Konul Faig Mahmudova***
*associate professor of the department of Biology and its teaching methods at*
*Azerbaijan State Pedagogical University*

# ISSUES OF ENVIRONMENTAL EDUCATION AND UPBRINGING

***Кёнюль Фаик гызы Махмудова***
*доцент кафедры Биологии и методики её преподавания*
*Азербайджанского Государственного Педагогического Университета*

# ВОПРОСЫ ЭКОЛОГИЧЕСКОГО ОБРАЗОВАНИЯ И ВОСПИТАНИЯ

**Xülasə**. Məqalədə ekoloji problemlərin dərinləşməsinin cəmiyyətin bütün sahələrində yeni düşüncə və davranışların formalaşdırılmasının zəruriliyi məsələləri təhlil olunur. Ekoloji tərbiyənin təhsil sistemində daha aktual olması, müasir təhsilin mühüm istiqamətlərindən biri kimi xüsusi əhəmiyyət kəsb etməsi, ekoloji tərbiyə və ekoloji pedaqogikanın birgə tətbiqinin gənc nəslin mənəvi və sosial inkişafında mühüm rol oynaması, təbiətə münasibətin etik, şüurlu və məsuliyyətli davranış səviyyəsinə yüksəlməsi vurğulanır. Məqalədə qeyd olunur ki, qlobal əhəmiyyətli COP-29 tədbirinin Azərbaycanda keçirilməsi tərbiyənin əhəmiyyətini daha da artırmışdır. Bu tədbir təhsil sistemində ekoloji şüurun gücləndirilməsi, gənclərin iqlim dəyişmələri ilə bağlı bilik, bacarıq və məsuliyyətinin artırılması üçün yeni imkanlar açır. Məqalədə ekoloji tərbiyənin məqsədləri, vəzifələri və formalaşdırma yolları, həmçinin təhsil müəssisələrində ekoloji pedaqogikanın tətbiq imkanları təhlil olunur. Ümumtəhsil müəssisələrində ekoloji mədəniyyətin, ekoloji məsuliyyətin, təbiətə sevgi və qayğı hissinin inkişafı müasir təhsil strategiyalarının əsas komponentlərindən biri kimi dəyərləndirilir.
***Açar sözlər:*** *ekoloji tərbiyə, ekoloji mədəniyyət, ekoloji təhsil, COP-29, dayanıqlı inkişaf.*

**Abstract.** The article analyzes the necessity of forming new ways of thinking and behavior across all areas of society in light of the deepening ecological problems. It emphasizes the growing relevance of environmental education in the education system, highlighting its special importance as one of the key directions of modern education. The joint application of environmental upbringing and ecological pedagogy is shown to play a significant role in the moral and social development of the younger generation, contributing to the formation of ethical, conscious, and responsible attitudes toward nature. The article notes that hosting the globally significant COP-29 event in Azerbaijan has further increased the importance of environmental education. This event has opened new opportunities for strengthening environmental awareness in the education system and for enhancing young people's knowledge, skills, and responsibility regarding climate change. The article discusses the goals, objectives, and methods of implementing environmental education, as well as the possibilities of applying ecological pedagogy in educational institutions. The development of ecological culture, environmental responsibility, and a sense of love and care for nature in general education institutions is evaluated as one of the main components of modern educational strategies.
***Keywords***: *environmental education, ecological culture, environmental upbringing, COP-29, sustainable development*

**Аннотация.** В статье анализируются вопросы, связанные с необходимостью формирования нового мышления и поведения во всех сферах общества в условиях углубления экологических проблем. Подчёркивается актуальность экологического воспитания в системе образования, его особое значение как одного из важнейших направлений современного образования, а также роль совместного применения экологического воспитания и экологической педагогики в духовном и социальном развитии молодого поколения. Отмечается, что такое воспитание способствует формированию этичного, осознанного и ответственного отношения к природе. В статье подчёркивается, что проведение глобального мероприятия COP-29 в Азербайджане ещё больше повысило значимость экологического воспитания. Это событие открыло новые возможности для усиления экологического сознания в системе образования, а также для повышения уровня знаний, умений и ответственности молодежи в вопросах изменения климата. Рассматриваются цели, задачи и пути формирования экологического воспитания, а также возможности применения экологической педагогики в образовательных учреждениях. Развитие экологической культуры, экологической ответственности, чувства любви и заботы к природе в общеобразовательных учреждениях оценивается как один из ключевых компонентов современных образовательных стратегий.

***Ключевые слова***: *экологическое воспитание, экологическая культура, экологическое образование, COP-29, устойчивое развитие.*

İnsan fəaliyyəti nəticəsində təbii mühitdə baş verən dəyişikliklər ekoloji tarazlığın pozulmasına, iqlim dəyişikliyi, biomüxtəlifliyin azalması və resursların tükənməsi kimi qlobal problemlərin yaranmasına səbəb olmuşdur. Son onilliklərdə dünya miqyasında ekoloji problemlərin artması, ətraf mühitin qorunması məsələsini daha da aktuallaşdırmışdır. Ciddi ekoloji böhranlar, cəmiyyətin müxtəlif sahələrində fərqli həll yolları axtarışını tələb edir. Bu kontekstdə, ekoloji tərbiyə və ekoloji pedaqogikanın rolu gündəmə gəlir. Ekoloji tərbiyə, insanın təbiətə qarşı məsuliyyətli və davamlı bir münasibətinin formalaşmasına yönəlmiş pedaqoji fəaliyyətləri ifadə edir. Ekoloji pedaqogika isə bu fəlsəfənin təhsil sisteminə daxil edilməsi və bu sahədə nəzəriyyə və praktikanın inkişafını nəzərdə tutur.

Müasir dövrdə təhsilin əsas məqsədi yalnız məlumatların ötürülməsi deyil, həm də şagirdlərin və tələbələrin ətraf mühitlə əlaqədar dəyərlərin inkişaf etdirilməsi, onların təbiətə qarşı məsuliyyətli davranışlarının təşviqidir. Ekoloji tərbiyə yalnız ekoloji bilikləri artırmaqla kifayətlənmir, həm də ekoloji problemlərə qarşı tənqidi düşünmə, praktiki həllər tapma və fərdi sosial məsuliyyətin formalaşması üçün zəruri olan bacarıqları formalaşdırır. Ekoloji tərbiyənin ümumi təhsil məktəblərində və ali təhsil müəssisələrindəki əhəmiyyəti, ekoloji şüurun artırılması üçün təkliflər və müasir təhsil sistemində ekoloji məsələlərin inteqrasiyasının önəmi danılmazdır.

Ekoloji tərbiyənin və ekoloji pedaqogikanın yaranması, XX əsrin ortalarına təsadüf edir. Ətraf mühitin qorunması ilə bağlı ilk geniş miqyaslı müzakirələr 1960-1970-ci illərdə başlandı. Bu dövrdə, insanların təbiətə olan münasibətlərinin dəyişməsi və ekoloji problemlərin artması, ekoloji tərbiyənin təhsil sisteminə daxil edilməsini zəruri etdi. Ekoloji problemlərin daha dərindən araşdırılması və bu problemlərə qarşı təhsilin gücləndirilməsi tələbi, dünyanın müxtəlif regionlarında ekoloji təhsilin önəmini artırdı.

1980-ci illərin sonlarına doğru, UNESCO və UNEP (Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı) beynəlxalq ekoloji təhsil standartlarını müəyyən etmək məqsədilə bir sıra təşəbbüslər irəli sürdü. 1983-cü ildə UNEP-in təklifi ilə "Ekoloji Tərbiyə və Təhsil" adlı bir sənəd qəbul edildi ki, bu da təhsil sistemində ekoloji məsələlərin inteqrasiyasına dair önəmli addımların atılmasına səbəb oldu. 1992-ci ildə Rio de Janeyroda keçirilən BMT-nin Ekoloji Konfransı (Earth Summit), ekoloji təhsilin qlobal miqyasda tətbiqini daha da gücləndirdi. Bu konfransda qəbul edilən "Rio Bəyannaməsi" və "Ətraf Mühitin Qorunması üzrə Proqram" ekoloji təhsilin inkişafını və genişlənməsini məqsəd qoydu.

Ekoloji pedaqogika tədricən bu təhsil yanaşmalarının nəzəri və praktiki əsaslarını inkişaf etdirən bir sahə olaraq formalaşdı. Ekoloji pedaqogika, təhsildə ekoloji məsələləri daha dərindən işləyən, təbiətə qarşı məsuliyyətli bir davranışın təşviqinə yönəlmiş metodologiyaları və yanaşmaları əhatə edir. Bu sahə, yalnız ekologiya elmlərinin tədrisi ilə məhdudlaşmayıb, həm də insanın ətraf mühitlə əlaqələrini etik, sosial və psixoloji baxımdan araşdırır.

Həm qlobal ətraf mühitin vəziyyəti, həm də yerli ekosistemlərdəki problemlər bu istiqamətdə təhsil metodlarının inkişafını təxirə salın-

maz bir zərurətə çevirmişdir. Ekoloji təhsil yalnız biologiya və ekoloji fənlərlə məhdudlaşmır; o, həm də digər fənlərdə mövcud olan ekologiya mövzularının daxil edilməsi ilə genişlənir. Məqsəd, şagirdlərin ekosistemlərə olan təsirini başa düşmələri və təbiətə qarşı məsuliyyətli bir münasibət formalaşdırmaqdır.

Azad olunmuş torpaqlarımızda (xüsusilə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında) ***ekoloji vəziyyətin pisləşməsi*** son dövrlərdə Azərbaycanın gündəmində xüsusi yer tutur. Bu ərazilər uzun müddət işğal altında qaldığından, təbii sərvətlərə və ekosistemlərə ciddi ziyan dəyib. İşğal dövründə Ermənistan tərəfindən Azərbaycan torpaqlarında həyata keçirilən fəaliyyətlər nəticəsində ciddi ekoloji pozuntular baş vermişdir: təbii resursların qanunsuz istismarı, meşələrin məhv edilməsi, sənaye və məişət tullantılarının təbiətə atılması, su ehtiyatlarının çirklənməsi, biomüxtəlifliyin pozulması, minaların yaratdığı ekoloji və sosial təhlükələrin qarşısının alınması üçün ekoloji pedaqogika və ekoloji tərbiyənin gücləndirilməsi, torpaqlarımızın ekoloji bərpası, gələcək nəsillərə ötürülməsi vacib vəzifə kimi qarşımızda durur. İşğaldan azad olunmuş torpaqlarda ekologiyanın pozulması təkcə ətraf mühit üçün deyil, həm də ölkənin iqtisadi və sosial inkişafı üçün ciddi çağırışdı.

Ekoloji təhsilin müasir təhsil sistemində inteqrasiyası, əvvəlcə fənn proqramında nəzərdə tutulmuş məzmun standartlarının reallaşdırılması ilə başlayır. Təkmilləşdirilmiş biologiya fənn proqramında müəyyənləşdirilmiş dörd məzmun xəttindən birinin "Canlılar və ətraf mühit" adlandırılması təsadüfi deyildir. Bu məzmun xətti üzrə müəyyənləşdirilmiş standartlar vasitəsilə şagirdlər ətraf mühit anlayışı, canlıların bir-biri ilə və cansız mühitlə qarşılıqlı münasibətləri, ekoloji amillər və bu amillərin qarşılıqlı təsirləri haqqında bilik və bacarıqlara yiyələnirlər. Bu məzmun xətti ekosistem konsepsiyasının dərk olunması və ətraf mühitə insanın təsirinin öyrənilməsinə, həmçinin milli, regional və qlobal ekoloji problemləri canlılar aləminin müxtəlifliyinin qorunması ilə əlaqələndirilməsinə və təhlilinə imkan verir.

Bundan əlavə, ekoloji təhsilin tətbiqi ümumtəhsil məktəblərində yalnız nəzəri yanaşmalarla məhdudlaşmır, həm də praktiki fəaliyyətlərə, layihələrə və təbiətə aid ekskursiyalara böyük yer ayrılır. Ekoloji təhsilin ən effektiv tətbiqi, şagirdlərin real həyatda da ekoloji problemləri hiss etməsi və onlara aktiv şəkildə iştirak etməsidir.

Bundan başqa, ekoloji təhsilin təşviqi yerli icmalar və qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq yolu ilə həyata keçirilir. Müasir təhsil sistemində şagirdlər yalnız məktəbdə deyil, həm də müvafiq ekoloji layihələrdə, seminar və təlimlərdə iştirak edərək, real dünya təcrübələri əldə edirlər. Bu, təhsil sisteminin ekoloji şüuru artıran, təkcə fərdi deyil, həm də cəmiyyətin inkişafına töhfə verən bir yanaşma olmasına imkan yaradır.

Əlavə olaraq, ekoloji təhsilin müasir təhsil sistemində inteqrasiyası yalnız təhsil sahəsində deyil, cəmiyyətin müxtəlif sahələrində də dəyişikliklərə səbəb olmuşdur. Təbiətin qorunmasına dair daha çox müzakirələrin aparılması, şagirdlərin ekoloji problemlər üzrə həll yolları tapmaq bacarıqlarını inkişaf etdirmələri, uzun müddətli ekoloji həllərin inkişafına töhfə verəcəkdir.

Ekoloji təhsil, bu günün dinamikaları ilə formalaşan bir sahə olaraq, gələcəkdə təhsil sistemində əhəmiyyətli dəyişikliklərə səbəb ola bilər. Gələcəyin təhsil sistemi, artıq yalnız biliklərin öyrədilməsi ilə məhdudlaşmayacaq, həm də təbiətin qorunması, davamlı inkişaf və ekoloji məsuliyyət mövzularında dərin təlimlərin verildiyi bir sistemə çevriləcək.

Ekoloji təhsilin əsas məqsədi, şagirdləri gələcəkdə qarşılaşacaqları qlobal ətraf mühit problemlərinə hazırlamaqdır. Bu baxımdan, davamlı təhsil sistemi, təbiətə uyğun həyat tərzini mənimsəyən və ekologiyaya zərər verməyən bir cəmiyyətin yetişdirilməsini hədəfləyir. Gələcəkdə təhsil proqramlarında ekologiyanın müxtəlif aspektləri daha dərindən və interdisiplinar bir yanaşma ilə tədris olunacaq. Yaşıl məktəblər, davamlı inkişaf dərsləri və təbiətlə birbaşa ünsiyyət imkanları bu yeni yanaşmaların əsasını təşkil edəcək.

COP-29-un (BMT-nin İqlim Dəyişikliyi üzrə Tərəflər Konfransı) 2024-cü ildə Azərbaycanın ev sahibliyi ilə keçirilməsi ölkənin müxtəlif sahələrində, o cümlədən təhsil sektorunda da mühüm əhəmiyyətə malikdir. COP-29 kimi beynəlxalq bir tədbirin Azərbaycanda keçirilməsi iqlim dəyişiklikləri mövzusunun təhsil sistemində ön plana çıxmasına səbəb oldu. Bu da aşağıdakılara yol açır:

- Ümumtəhsil məktəblərində və ali təhsil müəssisələrinin təhsil proqramlarına iqlim dəyi-

şikliyi ilə bağlı təlim nəticələrinin salınması, yeni tədris resurslarının hazırlanması;

- Ekoloji mövzular üzrə seminar, vebinar və layihələrin sayının artırılması və məzmununun genişləndirilməsi;
- Təhsilverən və təhsilalanlarda ekoloji şüurun formalaşması.

Azərbaycanın təhsil sistemində COP-29 vasitəsilə dayanıqlı inkişaf və ekoloji məsuliyyətlə bağlı mövzuların daha çox inteqrasiyası təşviq olunur. "Dayanıqlı inkişaf məqsədləri" (SDG) üzrə kompetensiyaların fənn kurikulumlarının məzmununa daxil edilməsi, ətraf mühitin mühafizəsi, karbon izi, alternativ enerji və s. kimi mövzuların dərs vəsaiti və dərsliklərdə yer alması azərbaycanlı gənclərin ekoloji tərbiyə almasına və onlarda ekoloji şüurun formalaşmasına səbəb olur.

COP-29 vasitəsilə eyni zamanda ekologiya, iqlim dəyişikliyi və dayanıqlı enerji sahəsində elmi tədqiqatlara dəstək artır:

- Yerli universitetlərdə bu sahədə tədqiqat layihələri və qrant imkanları;
- Beynəlxalq universitetlərlə əməkdaşlıq və elmi mübadilə;
- Tələbələrin iqlim mövzusunda startaplara və innovativ layihələrə cəlb olunması və s.

COP-29-un Azərbaycanda keçirilməsi, ölkənin beynəlxalq arenadakı mövqeyini gücləndirərək xarici universitet və təşkilatlarla təhsil sahəsində əməkdaşlıqların artmasına səbəb olur.

Yuxarıda da qeyd olunduğu kimi COP-29-un Azərbaycanda keçirilməsi təkcə siyasi və iqtisadi deyil, həm də təhsil sahəsində dərin və davamlı təsirə malikdir. Bu, gənc nəslin ekoloji məsuliyyətli və iqlim dəyişikliklərinə qarşı daha hazırlıqlı yetişməsinə, eləcə də milli təhsil sisteminin qlobal trendlərlə ayaqlaşmasına xidmət edir.

COP-29-un Azərbaycanda keçirilməsi, ölkənin beynəlxalq arenadakı mövqeyini gücləndirərək xarici universitet və təşkilatlarla təhsil sahəsində əməkdaşlıqların artmasına səbəb ola bilər:

- Mübadilə proqramlarının (Erasmus+, Fulbright və s.) sayının artması;
- Birgə təhsil proqramlarının yaradılması;
- Tələbə və müəllimlərin beynəlxalq iqlim forumlarına çıxış imkanları və s.

Ekoloji təhsil yalnız məktəb yaşında deyil, hər yaşda olan insanlar üçün əhəmiyyətlidir. Təbii ki, təhsilin məzmununda daim ekoloji məsələlər yer almışdır. Lakin müasir dövrdə bu istiqamətdə atılan addımlar yalnız ümumtəhsil müəssisələri və yaxud konkret ixtisaslar üzrə ali təhsil müəssisələrinin təhsil proqramları ilə məhdudlaşmayacaq. Hazırda ali təhsilin magistratura səviyyəsi üçün ixtisaslar üzrə təhsil proqramlarının hazırlanmasında da bu məsələ öz aktuallığını qorumuş və müxtəlif ixtisas və ixtisaslaşmalarda dayanıqlı inkişafa, ekoloji təhsilə yönələn təlim nəticələri formalaşdırılmış, bu təlim nəticələrinin əldə edilməsinə xidmət edən bir çox fənlərin tədrisi nəzərdə tutulmuş və müvafiq tədris planlarına daxil edilmişdir. Eyni zamanda hazırda həm gənclərin, həm də yetkin yaşlı insanların ekoloji təhsilə cəlb olunması üçün bir sıra təlim proqramları hazırlanır. Düşünürük ki, bu, yüksək təhsil, peşəkar inkişaf proqramları ekoloji təhsilin genişlənməsinə gətirib çıxaracaqdır. Eyni zamanda, ekoloji şüurun, vətəndaş məsuliyyətinin formalaşması, iş mühitlərinə də öz təsirini göstərməklə ekoloji məsuliyyətin daha ciddi şəkildə nəzərə alınmasına imkan yaradacaqdır.

Ölkə səviyyəsində bu istiqamətdə işlərin genişləndirilməsi qlobal əməkdaşlıqda daha önəmli rol oynayacaq. Dövlətlərarası və beynəlxalq təşkilatlar arasında ekoloji təhsilin təşviqinə yönəlmiş əməkdaşlıq, ekoloji problemlərin həlli istiqamətində daha geniş bir şəbəkə yaradacaq. Bu, həm də yeni təhsil platformalarının formalaşmasına səbəb olacaq, belə ki, təhsilalanlar dünyanın müxtəlif ölkələrindən ekoloji mövzularla bağlı birgə layihələrdə iştirak edə biləcəklər.

Ekoloji təhsilin perspektivləri, təhsil sahəsinin yalnız ətraf mühit problemlərinə deyil, ümumilikdə bütün cəmiyyətin ekoloji şüurunun yüksəldilməsinə yönələcəyini göstərir. Belə ki, qloballaşan dünyada *iqlim dəyişikliyi və ekoloji böhrana qarşı maarifləndirmə* daha da aktuallaşacaq, təhsilin müxtəlif pillələrində *ixtisaslaşmış kadrlar sayəsində ekoloji fənlər* tədris olunacaq, bu günün şagirdləri gələcəyin ekoloji cəhətdən savadlı vətəndaşları kimi formalaşaraq texnologiya və təbiəti birləşdirən yeniliklərə imza atacaqlar.

**Problemin aktuallığı.** Məqalənin aktuallığı günümüzdə ətraf mühit problemlərinin artması, ekoloji böhranların dərinləşməsi və insan fəaliyyətinin təbiətə mənfi təsirinin güclənməsi fonunda daha da ön plana çıxır. Bu məsələlərin həlli üçün cəmiyyətin bütün təbəqələrində, xüsusilə də gənc nəslin arasında ekoloji düşüncə və məsuliyyətin formalaşdırılması

vacibdir. Təhsil sistemi bu baxımdan əsas həlledici vasitələrdən biri hesab olunur.

**Problemin elmi yeniliyi.** Məqalənin elmi yeniliyi ondan ibarətdir ki, burada ekoloji təlim və tərbiyənin müasir təhsil sisteminə inteqrasiyası yeni yanaşmalarla təhlil olunur, ekoloji şüurun formalaşmasında təhsilin rolu daha dərindən araşdırılır. Məqalədə ekoloji biliklərin təkcə fənn kimi deyil, həm də tərbiyəvi prosesin əsas istiqaməti kimi tətbiq olunmasının zəruriliyi əsaslandırılır. Məqalədə ekoloji tərbiyənin formalaşdırılmasında interaktiv metodlardan, layihə əsaslı öyrənmədən və şagirdyönlü yanaşmalardan istifadə imkanları araşdırılır. Əldə olunan nəticələr təhsildə ekoloji komponentlərin sistemli şəkildə tətbiqinə və bu sahədə metodoloji əsasların genişləndirilməsinə töhfə verir.

**Problemin praktik əhəmiyyəti**. Məqalənin praktik əhəmiyyəti ondan ibarətdir ki, bu mövzu həm cəmiyyətin ekoloji şüurunun formalaşmasına, həm də təhsilalanların təbiətə qarşı məsuliyyətli münasibətinin inkişafına real töhfə verir. Məqalədə ətraf mühitin qorunması və ekoloji tarazlığın saxlanılması üçün təhsilin və tərbiyənin oynadığı rol aydın şəkildə izah olunur. Burada təqdim olunan ideyalar təhsil prosesində ekoloji məzmunun tətbiqinə, müəllimlərin ekoloji istiqamətli tədris fəaliyyətinə və şagirdlərdə düzgün ekoloji davranış vərdişlərinin aşılanmasına yönəlib.

## Ədəbiyyat


1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2003-cü il iyunun 2-də "Ekoloji təhsil və maarifləndirmə üzrə dövlət proqramlarının tərtib edilməsi Qaydaları"nın və "Ekoloji təhsil və maarifləndirmə üzrə məsləhət şuraları haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə 75 nömrəli qərar. http://e-qanun.gov.az/files/framework/data/2/f_2184.htm
2. Azərbaycan respublikasının ümumi təhsil müəssisələri üçün "Biologiya" fənni üzrə təhsil proqramı (kurikulum) (VII-XI siniflər). Bakı –2023. https://arti.edu.az/wp-content/uploads/2023/12/T%C9%99kmill%C9%99sdirilmis-biologiya-f%C9%99nn-kurikulumu.pdf
3. Ali təhsilin magistratura səviyyəsi üzrə pedaqogika ixtisasının təhsil proqramları. Təhsil Nazırliyi, – 2025.
4. Kazımov N.M. Məktəb pedaqogikası / N.M. Kazımov. − Bakı: Çaşıoğlu, − 2002.- 440 s.


**Redaksiyaya daxil olub:** 04.11.2025